# "Şuşa ili"nə həsr olunmuş qrant müsabiqəsinin yekunlarına dair mətbuat konfransı

Yanvarın 24-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi "Şuşa ili"nə həsr olunmuş qrant müsabiqəsinin yekunlarına dair mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, konfransda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin məsul əməkdaşı Rahu Şirinova, agentliyin icraçı direktoru Aygün Əliyeva, Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və Kommunikasiya şöbəsinin müdiri Pərvin Məmmədova, "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsinin qalibləri, layihə rəhbərləri, media nümayəndələri və bloqçular iştirak ediblər.

Konfrans şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra agentliyin icraçı direktoru Aygün Əliyeva mətbuat konfransının məqsədi haqqında məlumat verib və bildirib ki, Azərbaycanda 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin sərəncamından irəli gələrək ötən il agentlik "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsini elan edib. Qrant müsabiqəsinə 227 qeyri-hökumət təşkilatı tərəfindən layihə təqdim olunub, onlardan 22 QHT layihəsinin maliyyələşdirilməsi haqqında agentliyin Müşahidə Şurası qərar qəbul edib. Qalib gələn layihələrin əsas qayəsində Şuşanın tədqiqinə həsr olunmuş layihələr, eyni zamanda bloqçuların, müxtəlif beynəlxalq tədbirlərin iştirakçılarının Şuşa şəhərinə səfərlərinin təşkili, orada düşərgələrin keçirilməsi olub. Həmçinin xarici ölkələrdə "Şuşa ili"nə həsr olunmuş müxtəlif formatlı tədbirlərin, elmi konfransların keçirilməsi və təbliğat xarakterli işlərin görülməsi əks olunub. Bu gün təşkil edilən mətbuat konfransının əsas məqsədi həmin layihələr çərçivəsində görülən işləri medianın diqqətinə çatdırmaqdır.

Daha sonra "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsinin nəticələri haqqında film təqdim olunub.

Təqdimatdan sonra "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsinin qalibləri, layihə rəhbərləri icra olunmuş layihələrlə bağlı jurnalistlərin suallarını cavablandırıblar.

Suallardan sonra çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin məsul əməkdaşı Rahu Şirinova deyib: "Şuşa ili"nə həsr olunmuş layihələrin miqyası sosial media seqmenti üzrə də monitorinq edilmiş və layihələr barədə məlumatlar, paylaşımlar, Qarabağ - Şuşa məkanının sosial medianın müxtəlif platformalarda dünya trendinə çıxdığı xüsusi proqramlar vasitəsilə təsdiqlənib. Layihələrin nəticələri müsbət qiymətləndirilib.

Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və Kommunikasiya şöbəsinin müdiri Pərvin Məmmədova layihə qaliblərinin Qarabağ Dirçəliş Fonduna ianə etmələrini müsbət hal kimi qiymətləndirərək bildirib ki, bu təşəbbüsün dəstəklənməsi, həyata keçirilməsi doğma Qarabağımızın yenidən bərpasına xidmət edəcək. "İnanıram ki, vətəndaş cəmiyyətinin nümayəndələri bu prosesdə yaxından iştirak etməklə Qarabağımızın bərpası prosesinə öz töhfələrini verəcək", - deyə Pərvin Məmmədova vurğulayıb.

Daha sonra QHT-lərə Dövlət Dəstəyi Agentliyinə Qarabağ Dirçəliş Fondu tərəfindən ianə sertifikatı təqdim olunub.

Mətbuat konfransına şəhid övladlarının ifasında "Qəhrəman övladıyıq" kompozisiyası ilə yekun vurulub.

Azərbaycan. - 2023.- 25 yanvar.- S.8.